# Şəhdlik zirvəsinə ucalan qəhrəmanlar!

## YAP Biləsuvar rayon təşkilatının əməkdaşları Şəhid ailələrini ziyarət edib





Yeni Azərbaycan Partiyası Biləsuvar rayon təşkilatının əməkdaşları və fəalları 12 noyabr 2021- ci il tarixdə Vətən müharibəsində vətənimizin müdafiəsi uğrunda öz canından keçən Biləsuvar rayon Çaylı kəndindən olan şəhid Məmişli Sahil Ağaverdi oğlunun, Zəhmətabad kəndindən olan şəhid Qasımzadə Nicat Höccət oğlunun və Biləsuvar şəhərindən olan şəhid Əzizli Elnur Şahin oğlunun ildönümləri ilə əlaqədar olaraq ailələrini ziyarət ediblər. Daha sonra şəhidlərin məzarları ziyarət edilib və dərin ehtiramla yad edilərək üzərlərinə tər gül dəstələri düzüblər.

Allah rəhmət eləsin!

**Rəfiqə**



## Qəbələdə şəhid Bəhruz Abuşovun ildönümü qeyd olunub



Vətən müharibəsində qəhrəmancasına döyüşmüş Abuşov Bəhruz Zabit oğlunun şəhidlik zirvəsinə ucaldığı gündən bir il keçir. Bu münasibətlə rayon icra hakimiyyətinin, YAP Qəbələ rayon təşkilatının, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə, təşkilatların rəhbərləri, şəhidin təhsil aldığı məktəbin kollektivi, döyüş yoldaşları tərəfindən Bəhruz Abışovun məzarı ziyarət edilərək xatirəsi ehtiramla anılmış, məzarı üzərinə gül dəstələri düzülmüş və ruhuna dualar oxunmuşdur. Həmçinin, şəhidin xatirəsinə Nohurqışlaq kəndində ucaldılmış bulaq kompleksinin



açılışı olmuşdur. Tədbir iştirakçıları şəhidin ailəsini evlərində ziyarət etmişlər. Şəhidin ailə üzvləri şəhid ailələrinə göstərilən diqqət və qayğıya, sosial təminatlarının yaxşılaşdırılması istiqamətində görülmüş işlər və aparılan islahatlara görə ölkə rəhbərliyinə dərin minnətdarlıqlarını bildirmişlər.

**Rəfiqə**

## Qobustan rayonunda şəhid Həsən Quliyevin anım mərasimi keçirilib





Qobustan rayon icra hakimiyyətinin rəhbərliyi, YAP Qobustan rayon təşkilatının, rayon hüquq-mühafizə orqanlarının rəhbərləri, din xadimləri, rayon ictimaiyyətinin nümayəndələri Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən Vətən müharibəsində döyüşlərdə qəhrəmancasına şəhid olan Qobustan rayonu Sündü kəndindən Quliyev Həsən Yalçın oğlunun şəhadətinin ildönümü ilə əlaqədar məzarını ziyarət edib, məzarı üzərinə gül-çiçək dəstələri düzərək əziz xatirəsini böyük ehtiramla yad ediblər. Şəhid Quliyev Həsən ölməndən sonra ölkə Prezidenti cənab İlham Əliyevin sərəncamları ilə ” Vətən uğrunda” ,”Füzulinin azad olunmasına görə”, ”Xocavəndin azad olunmasına görə”, ”Cəsur döyüşçü” medalları ilə təltif olunmuşdur. Şəhidimizin keçdiyi şərəfli döyüş yolundan bəhs edilib və nümunəvi gənclər kimi cəmiyyətin rəğbətini qazandığını vurğulayıblar. Şəhidimizin ailə üzvləri Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən onlara göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

**R.Kamalqızı**

## Zaqatalada şəhid Ehtiram Əhmədovun xatirəsi anılıb







YAP Zaqatala rayon təşkilatının rəhbərliyi, Zaqatala rayon icra hakimiyyətinin rəhbərliyi, Zaqatala rayon Heydər Əliyev Mərkəzinin əməkdaşları, rayon hüquq-mühafizə orqanlarının rəhbərləri, din xadimləri, qazilər, rayon ictimaiyyətinin nümayəndələri Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən Vətən müharibəsində döyüşlərdə qəhrəmancasına şəhid olan Zaqatala rayon Yeni Suvagil kənd sakini Əhmədov Ehtiram Teyyub oğlunun ildönümü ilə əlaqədar məzarını ziyarət edib, məzarı üzərinə gül-çiçək dəstələri düzərək əziz xatirələrini böyük ehtiramla yad ediblər. Daha sonra şəhidlərimizin xatirəsinə inşa edilmiş bulaq-abidə kompleksinin açılışı olub. Sonda ziyarətçilər Şəhid ailəsini ziyarət edib, onların qayğı və problemləri ilə maraqlanıblar. Şəhidimizin keçdiyi şərəfli döyüş yolundan bəhs edilib. Şəhidimizin ailə üzvləri Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən dövlət səviyyəsində şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər. Şəhidlərimizin ruhları şad, məkanları cənnət olsun.

**Zümrüd BAYRAMOVA**